# MÜASİR DÖVRDƏ BEYNƏLXALQ MƏDƏNİ MÜBADİLƏNİN ƏSAS FORMA və İSTİQAMƏTLƏRİ

Mənsurə Hüseynova,
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin magistrantı
E-mail: *mensureh@gmail.com*

XXI əsrin əvvəllərində Amerika neoliberal məktəbinin nümayəndəsi C.Nayın beynəlxalq münasibətlər nəzəriyyəsində populyarlıq qazanan "yumşaq güc" adlı konsepsiyasında mədəni əməkdaşlıq ideyası əsas arqumentlərdən biri hesab edildi. Müəllifin fikrincə, ərazi miqyası, ordu və bu kimi ənənəvi siyasi arqumentlər müasir dövrdə öz səmərəliliyini itirdiyindən dövlətlər daha çox təhsil, elm, mədəniyyət kimi "yumşaq" vasitələrdən istifadəyə üstünlük verir. Məhz elə bu səbəbdən də beynəlxalq münasibətlərdə mühüm rol oynamağa çalışan mədəniyyətə ölkənin xarici siyasətinin əhəmiyyətli amili kimi yanaşmaq lazımdır. XX əsrin axırları – XXI əsrin əvvəllərində dünya ölkələri özünün yeni obrazının yaradılmasında mədəniyyətin imkanlarından geniş şəkildə istifadəyə üstünlük verdi. Bu istiqamətdə beynəlxalq mədəni əməkdaşlıq müstəsnalıq təşkil edir.

Müasir beynəlxalq münasibətlərdə mədəni əməkdaşlıq fenomeni xüsusi əhəmiyyətə malikdir. Bu gün digər dövlətlərin xalqları ilə möhkəm mədəni əlaqələrin qurulması məsələsinə xüsusi diqqət yetirməyən ölkə tapmaq mümkün deyil. Mədəniyyət mənəvi, yaradıcı, intellektual ünsiyyət prosesi olmaqla mədəni mübadilə kontekstində yeni ideyalarla qarşılıqlı şəkildə zənginləşməni nəzərdə tutur və beləliklə, sosial, etnik, dini mənsubiyyətindən fərqli olan insan qrupların birləşdirməklə kommunikativ funksiyanı yerinə yetirir. Məhz mədəniyyət müasir beynəlxalq münasibətlər sisteminin qurulmasını təmin edən "dil"ə çevrilmişdir. Öz başlanğıcını qədim dövrlərdən götürən mədəni əlaqələrin çoxəsrlik təcrübəsi beynəlxalq mədəni qarşılıqlı təsirin əsas istiqamətləri, forma və prinsiplərinin işlənilməsində mühüm əhəmiyyət kəsb edir. Sosial və tarixi hadisə kimi mədəni mübadilənin kökləri qədimlərə gedib çıxır. Qədimlərdə mədəniyyət sahəsində informasiya mübadiləsi təsadüfi səciyyə daşıyırdı, xüsusilə qəsbkarlıq, işğalçılıq proseslərinin nəticəsi olaraq barbarlıq formaları mövcud idi. Nəinki mədəniyyətlərin qarşılıqlı nüfuzetməsi, bəzən hətta tənəzzülü baş verirdi. Belə hallarda bəşəriyyət əsrlərboyu topladığı dəyərli təcrübəni itirirdi. Mədəni mübadilənin sivil formaları əsasən ticarət münasibətlərinin inkişafı ilə bağlıdır. Lakin bunlar da ayrı-ayrı regional çərçivə ilə məhdudlaşır və davamlı, möhkəm deyildi. Tarixi gedişin axarında dünya xalqları arasındakı münasibətlər sistemli və geniş vüsət tapdıqca mədəni mübadilələr üçün də əlverişli mühit formalaşırdı. Dəniz nəqliyyatının inkişafı, avropalıların coğrafi kəşfləri, iri sənayenin yaranması müxtəlif xalqların mədəniyyəti haqqında biliklərin yayılmasına əhəmiyyətli şəkildə şərait yaratdı. Xalqların sənayedə, elmdə, təhsildə, mədəniyyətdə baş verən yeniliklərlə tanışlığa meyli gücləndikcə, ziyalıları artdıqca dünya nailiyyətlərini mənimsəməsinə ehtiyacı yüksəlir. Beləliklə, beynəlxalq mədəni mübadilə beynəlxalq münasibətlərin zəruri istiqamətinə çevrilir.

Hazırkı siyasi məkanda mədəni əlaqələrin nəzəri və praktik əhəmiyyəti, müasir dünyada inteqrasiya və qloballaşma prosesləri, mədəni ekspansiya problemləri beynəlxalq münasibətlər sistemində beynəlxalq mədəni mübadilə məsələlərinə müraciətin vacibliyini diktə edir. YUNESKO-nun 4 noyabr 1966-cı il tarixli Baş Konfransının on dördüncü sessiyasında qəbul edilmiş "Beynəlxalq əməkdaşlıq prinsipləri deklarasiyası"nın birinci maddəsində "hər bir mədəniyyətin dəyər və yaxşı xüsusiyyətlərə" malikliyi və beynəlxalq mədəni əməkdaşlığın məqsədlərindən birinin də "hər bir insanın biliklərə yiyələnməsi və incəsənətdən zövq almaqla mədəni həyatın zənginləşdirilməsinə təsir göstərmə"si haqqında fikri qeyd olunur *(8)*. 1970-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş deklarasiyada isə dövlətlər arasında dostluq münasibətlərini hüquqi cəhətdən tənzimləyən prinsiplərin beynəlxalq mədəni əməkdaşlıq sahəsində də tətbiqi məqsədəuyğun sayılır. Bu prinsiplərə aiddir: dövlət suverenliyinə hörmət edilməsi; güc təhlükəsi və gücdən istifadənin qadağan olunması; bərabərlik və özünü təyinetmə hüququ; münaqişələrin sülh yolu ilə həlli; öhdəliklərin məcburi olaraq yerinə yetirilməsi.

Beynəlxalq münasibətlər sistemində mədəni mübadilə mədəniyyət anlayışının əsas məzmunu və beynəlxalq münasibətlərin mahiyyəti ilə diktə olunur. Xalqlar arasında mədəni mübadilə həm də cəmiyyətin inkişafının ayrılmaz atributlarındandır. Siyasi və iq-

tisadi cəhətdən ən güclü ölkə, dövlət də bəşəriyyətin mədəni irsi, digər xalqların nailiyyətlərini mənimsəmədən öz vətəndaşlarının mədəni-estetik tələbatlarını ödəmək imkanından məhrumdur. Mədəni mübadilələr dövlətlər, ictimai təşkilatlar və insanlar arasında uzunmüddətli və davamlı əlaqələrin qurulmasını təmin edir, digər sahələrdə, hətta iqtisadi sferada da dövlətlərarası qarşılıqlı təsirin formalaşmasına öz töhfəsini verir. Beynəlxalq mədəni mübadilə mədəniyyətin bütün xüsusiyyətlərini özünə cəlb edir, eləcə də formalaşmanın əsas mərhələlərinin təzahürüdür. Bu proses bilavasitə xalqlar, dövlətlər, sivilizasiyalar arasındakı əlaqələrlə bağlı olub beynəlxalq münasibətlərin tərkib hissəsini təşkil edir. Mədəni əlaqələrin beynəlxalq münasibətlərdən ən mühüm fərqi mədəni dialoqların, hətta dövlətlərarası münasibətlərin siyasi cəhətdən gərgin və ziddiyyətli olduğu hallarda da davamından ibarətdir. Beləliklə, beynəlxalq mədəni əlaqələrin özünəməxsusluğunu nəzərə alaraq bu fenomenin digər aspektlərinə toxunmaq olar. Beynəlxalq münasibətlər sistemində mədəni mübadilə – beynəlxalq münasibətlər və bəşəri mədəni prosesin ümumi qanunauyğunluqlarını təzahür etdirən mürəkkəb və kompleks bir hadisədir. Bu, dövlət və qeyri-dövlət xətti ilə həyata keçirilən rəngarəng mədəni əlaqələr kompleksidir. Kompleksə siyasi, iqtisadi, sosial, mədəni həyata təsiretmə vüsətinə malik olan tarixən mövcud forma və istiqamətlərin bütöv bir sahəsi daxildir.

Beynəlxalq mədəni əlaqələrin təsnifatı təkcə mübadilə iştirakçılarına görə deyil, həm də qarşılıqlı təsir istiqamət və formaları nöqteyi-nəzərinə görə müəyyənləşir. Həmin məsələyə toxunmaqla dövlət və qeyri-dövlət səviyyələrində çoxtərəfli və ikitərəfli əməkdaşlığın nümunələrini üzə çıxartmaq mümkündür. Mədəni mübadilənin formaları mədəni və siyasi həyatın ən maraqlı hadisələri olmaqla xüsusi diqqətə layiqdir. Malik olduğu bütün rəngarəngliklər ilə bu gün mədəni mübadilənin bir sıra istiqamət və formaları mövcuddur. Bu forma və istiqamətlər müasir beynəlxalq münasibətlərin xüsusiyyətlərini və mədəni inkişafın spesifikasını əyani və tam şəkildə əks etdirir. Mədəni mübadilənin əsas istiqamətlərinə aşağıdakılar aiddir: musiqi, teatr və kino sənəti sahəsi üzrə beynəlxalq əlaqələr; idman, elm və təhsil sahəsi üzrə əlaqələr; beynəlxalq trizm sahəsi üzrə əlaqələr. Müasir tarixi şəraitdə məhz sözügedən istiqamətlər daha geniş vüsət tapmaqdadır.

Bu istiqamətlərdən irəli gələrək beynəlxalq mədəni mübadilənin əsas formalarına isə festival, müsabiqə, qastrol, yarış, konqres, elm və təhsil konfransları, elmi-tədqiqatçılıq və təhsil mübadiləsi üzrə proqramlar, təqaüd və qrant təcrübəsi, fond və elmi təşkilatların, sərgi, yarmarkaların təşkili üzrə proqramlar, həmçinin mədəni layihələr daxildir. Bütün formalar lap çoxdan, lakin inteqrasiya və beynəlmilləşmə şəraitində geniş və ardıcıl olaraq inkişaf etmişdir.

YUNESKO-nun 26 noyabr 1976-cı il tarixli "Mədəni dəyərlərlə beynəlxalq mübadilə haqqında" tövsiyələrində "mədəniyyətin müxtəlif sahələrinin nailiyyətləri ilə qarşılıqlı tanışlığı möhkəmləndirən mədəni mübadilələr hər bir mədəniyyətin özünəməxsusluğu və rəngarəngliyinin qorunub saxlanılması, mədəniyyətləri yaradan xalq, millət və etnik birliklərə hörmətin təmininə əhəmiyyətli şəkildə kömək göstərir və bu prosesi inkişaf etdirmək lazımdır" qeydi var.

Sənəd yuxarıda qeyd olunan mədəni mübadilə formalarının tətbiqinə böyük əhəmiyyət verir. Xüsusilə beynəlxalq mədəni mübadilənin institutlaşdırılması tendensiyası özünü qabarıq şəkildə göstərir. Mədəni əməkdaşlıq sahəsində institutlaşma qeyri-hökumət strukturlarının cəlb edilməsi ilə müxtəlif ölkələrin iştirakçıları da qatılmaqla birgə rəngarəng layihələrin həyata keçirilməsini nəzərdə tutur. Belə irimiqyaslı tədbirlərə ölkələrin muzeyləri, kitabxanaları, teatr və digər dövlət müəssisələri fəal şəkildə qatılır. Mədəni mübadilənin məhz belə formatda təşkilini həyata keçirən ən fəal təşkilatlardan biri xaricdə, eləcə də daxildə təşkil olunan mədəniyyət mərkəzləridir. Mədəniyyət mərkəzlərinin fəaliyyəti elmi və praktik cəhətdən maraq doğurmaqla müasir beynəlxalq mədəni əməkdaşlığın aktual tendensiyalarını üzə çıxarır. Bu cür spesifik təşkilatlara diqqətin artırılması hər şeydən əvvəl onun universallığı ilə bağlıdır. Mədəniyyət mərkəzləri müxtəlif fəaliyyət növlərinin: rəngarəng mədəni layihələrin, milli mədəniyyət nümayəndələri ilə görüşlərin, dillərin tədrisi, rəqs və milli incəsənət kurslarının və bu kimi tədbirlərin təşkili ilə məşğul olur. Bu gün dünyada mədəniyyətlərarası dialoqun inkişafına xidmət edən xarici mədəniyyət mərkəzlərinin geniş bir şəbəkəsi mövcuddur. Belə təşkilatların xarici mədəniyyət mərkəzləri adlandırılması qəbul edilmişdir. Lakin bununla yanaşı, mədəni-tədris, yaxud da mədəni-informasiya, mədəniyyət institutu kimi adlara da rast gəlinir. Öz fəaliyyətini xaricdə həyata keçirən mədəniyyət mərkəzləri dövlətlər arasında mədəni mübadilənin ən rahat və səmərəli formalarından biridir. Həmin mərkəzlər dünyanın aparıcı ölkələri ilə yanaşı, Azərbaycanda da fəaliyyət göstərməkdədir. Rusiya Mədəniyyət Mərkəzi, Misir Mədəniyyət Mərkəzi, Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası (SEBA, yəni Seul–Bakı) və başqaları bu qəbildəndir; məsələn, geniş mədəniyyət mübadiləsi






həyata keçirən SEBA mövcud olduğu illər ərzində (2004-cü ilin noyabrından) incəsənət, elmi, tibbi, xeyriyyə, təhsil və digər sahələr üzrə genişmiqyaslı layihələr həyata keçirir. Belə layihələr Azərbaycanda Koreya, eyni zamanda Koreyada Azərbaycan mədəniyyətinin təbliğ edilməsi məqsədilə baş tutmuşdur. SEBA Assosiasiyası həmçinin Koreya tərəfinin müxtəlif ölkələrdə təşkil etdiyi layihələrdə də iştirak edir.

Yaxud da Azərbaycanda ilk ərəb mədəniyyət mərkəzi sayılan və 1999-cu ildə təşkil olunan Misir Mədəniyyət Mərkəzi ərəb mədəniyyətinin ölkəmizdə tanıdılması ilə yanaşı, Misir və Azərbaycan dövlətləri arasında da elmi-mədəni əməkdaşlığın möhkəmləndirilməsində əsas vasitəçi rolunu oynayır. Mərkəzin əsas fəaliyyət istiqamətlərinə hər iki ölkənin tarixi, mədəniyyəti ilə bağlı müştərək tədbirlərin keçirilməsi, təhsil və elm sahəsində mübadilələrin inkişafı aiddir. Ən faydalı işlərdən biri də Azərbaycanda ərəb dilinin tədrisinə kömək etməkdir.

Bir çox dövlətlər mədəniyyət mərkəzlərinə ölkədə olduqları müddətdə ictimai rəyə təsirin dominant obyekti kimi yanaşır. Bunların üstünlüyü məxsus olduqları dövlətin xarici mədəniyyət siyasətinin məqsədlərini, eləcə də fəaliyyət göstərdikləri ölkənin auditoriyasının xüsusiyyətlərini nəzərə almaqla öz fəaliyyətlərini müstəqil şəkildə qurmaları ilə izah olunur. Xarici mədəniyyət mərkəzi anlayışının elmi izahının yeni işlənilməsinə baxmayaraq, beynəlxalq mədəni mübadilə istiqamətində bir təşkilat olaraq çoxdan yaranmışdır. Bu tipdən olan ilk müəssisələr hələ XIX əsrin axırı – XX əsrin əvvəllərinə aiddir. 1883-cü ildə Fransada müasir xarici mədəniyyət mərkəzlərinin prototipi kimi Fransız Alyansı təşəkkül tapmışdır. Ardınca Dante adına təşkilat (1889), Fransız institutu (1907), Höte adına institut (1925), Britaniya Şurası (1934), Servantes institutu (1991, Konfutsi institutu (2004) və başqalarının adlarını qeyd etmək olar. Sonrakı illərdə mədəniyyət mərkəzlərinin fəaliyyəti müxtəlif daxili və xarici amillərin, eləcə də beynəlxalq şəraitin tələblərindən asılı olaraq dəyişməyə başladı. II Dünya müharibəsi ərzində mədəniyyət mərkəzləri öz ölkələrinin siyasi prinsipləri və ideyalarının təbliğinə diqqəti gücləndirdi. Buna misal olaraq Britaniya Şurasının fəaliyyətini göstərmək olar. Bu mərkəz öz fəaliyyətini faşist ideologiyasının yayılmasına qarşı istiqamətləndirmişdir *(7)*. Artıq müharibədən sonra mədəniyyət mərkəzlərinin fəaliyyəti yenidən bərpa olunaraq genişlənməyə başladı. Məhz bu tarixi şəraitdə siyasi xadimlər mədəniyyət mərkəzləri vasitəsilə Avropa, eləcə də dünya ölkələrinin inteqrasiyasının labüdlüyünü ön plana çəkdilər.

Bu gün mədəniyyət mərkəzlərinin fəaliyyət sahəsinə tədris proqramları, dillərin öyrənilməsi üzrə kurslar, kitabxanaların yaradılması, konsert, sərgi, müsabiqə, festival, konfrans, mühazirə, seminarların təşkili aiddir. Fəaliyyətlərindəki istiqamətlərin və formaların müxtəlifliklərinə baxmayaraq bu mərkəzlər öz ölkələrinin obyektiv və pozitiv obrazlarının yaradılmasına çalışır. Onların fəaliyyətlərinin əsas məqsədi də məhz budur. Mədəniyyət mərkəzləri fəaliyyət strategiyası və konkret proqramların işlənilməsi prosesində partnyorlarının milli spesifikası ilə yanaşı, şəxsi maraqlarını da nəzərə alırlar. Müəlliflər N.Boqolyubov və Y.Nikolayevanın qeyd etdikləri kimi, yalnız bu amillərin ahəngdar vəhdəti sayəsində keçirilən tədbirlər əməli fayda verə bilər *(6)*.

Beynəlxalq mədəni mübadilə təcrübəsində ölkənin xaricdə fəaliyyət göstərən mədəniyyət mərkəzləri mühüm forma kimi özünü doğrultmuşdur. Milli səviyyədə təşkil olunan ictimai-dövlət qurumları dövlətin beynəlxalq mədəni əlaqələr sahəsində səylərini koordinasiya edir.

Müasir dövrdə mədəni mübadilənin əsas vasitələrindən biri texniki vasitələrdir. Bu istiqamətdə interneti xüsusi vurğulamaq lazımdır. Dünya xalqlarının bir-birinin mədəniyyəti və incəsənəti ilə tanışlığında bu vasitə indiyədək görünməmiş ən operativ texniki im-



kanlara malikdir. İnternetin ən üstün cəhəti ali sənət və mədəniyyət dəyərlərini insanlara təqdimetmə üsuludur ki, beynəlmiləl mədəni dəyərləri mənimsəmə imkanları ilə izah olunur. Məhz bunun sayəsində dünya mədəniyyətinin unikal nailiyyətləri ümumxalq, kütləvi səciyyəyə malik olmuşdur. İndi müəyyən bəşəri şah əsəri görmək üçün mütləq hansısa muzeyə getmək və ya ölkəyə səfər etmək lazım deyil, o özü sənin evinə "gəlir".

Sadalanan xüsusiyyətlər müasir dövrdə beynəlxalq mədəni mübadilənin keyfiyyətcə yeni cəhətlər əldə etdiyini və öz miqyasına görə indiyədək görünməmiş intensivliyə malik olduğunu üzə çıxarır. Artıq intellektual və bədii yaradıcılıq beynəlxalq əlaqələr səviyyəsində öz milli çərçivəsindən çıxaraq beynəlmiləl səciyyə kəsb etməkdədir. Mədəni mübadilənin bu yeni keyfiyyəti yuxarıda vurğuladığımız kimi beynəlxalq elmi birliklərin sayının artması, mərkəz və assosiasiyaların yaranması və onların fəaliyyətinə uyğun mədəni iş formalarının tətbiqi ilə izah olunur. İlk dəfə beynəlxalq mədəni mübadilə məqsədyönlü siyasətin predmetinə çevrilmişdir. İctimaiyyətin diqqətinin intellektual və bədii dəyərlərin yaradılma prosesinə cəlbi baş verir. Bu sahədəki nailiyyətlər bəşəri sensasiyaya çevrilir. Görkəmli alimlər, mühəndislər, yazıçı və rəssamlar beynəlxalq ictimaiyyətin diqqətini özünə cəlb edir.

Milli mədəniyyətlərin bərabər şəkildə qarşılıqlı inteqrasiyası həmişə bəşəri sivilizasiyanın tərəqqisinə əlverişli surətdə təsir göstərir. Proses xüsusilə elm və texnika sahəsində özünü qabarıq şəkildə büruzə verir. Toxunulan məqamlar tədqiqatların daha perspektivli istiqamətlərini müəyyənləşdirir, həll olunmamış problemləri üzə çıxarır və fənlərarası əlaqələri müəyyənləşdirir. Beynəlxalq konqreslər, konfranslar, informasiya mübadiləsinin digər formaları sistemli səciyyə daşımağa başlayır. Elmi-tədqiqat nəticələrinin praktik əhəmiyyət və tələblərindən irəli gələrək təcrübə-konstruksiya, tibb və digər bilik sahələrində əməkdaşlığın beynəlxalq formaları aktuallıq kəsb edir. Qabaqcıl iş təcrübəsinin ötürülməsi, xarici mütəxəssislərin dəvət edilməsi, informasiya mübadiləsi məqsədilə beynəlxalq forumların təşkili – bütün bunlar mədəni mübadilənin bu gün daha çox tətbiq olunan formalarıdır.

Hazırkı tarixi şəraitdə beynəlxalq mədəni mübadilə ildən-ilə daha yeni ideya, istiqamət və formalarla zənginləşərək yeni layihələrdə öz təzahürünü tapır, coğrafiyası genişlənir. Burada qarşılıqlı mübadilənin müasir texniki imkanlarla şərtlənmiş, həm yeni, həm də təcrübədə özünü təsdiqləmiş ənənəvi vasitə və formaları vəhdət təşkil edir. Beynəlxalq mədəni mübadilə sahəsində yeni formaların axtarılması və tətbiqi qarşılıqlı mədəni əlaqələrin səmərəliliyini yüksəltməklə yanaşı, həm də dövlətlər arasındakı siyasi problemlərin dinc yolla həllinə də kömək etmiş olar. ❖


**Ədəbiyyat**

1. Azərbaycan və YUNESKO. Bakı – 2002.
2. Beynəlxalq mədəni əlaqələr. Dərslik. I c., Bakı – 2008.
3. Beynəlxalq mədəni əlaqələr. Dərslik. II c., Bakı –2009.
4. Qasımov M. Azərbaycan Respublikası dünya meridianlarında. Bakı – 1993.
5. Sayadov S. XX əsr: Azərbaycan və dünya. Bakı – 2006.
6. Боголюбова Н.М., Николаева Ю.В. Межкультурная коммуникация и международный культурный обмен. СПб. СПьКО. 2009.
7. Рисс К. Тотальный шпионаж. М.,1945. 122 с.
8. Декларация принципов международного культурного сотрудничества: принята 4 ноября 1966 года Генеральной конфранцией Организации Обьединенных Нации по вопросам образования, науки и культуры на ее Четырнадцатой сессии. URL: http://www/un/org.\rudocuments/decl_conv|declarations/culture/shtml



**Резюме**

В системе международных отношений культурный обмен играет важную роль. В статье лаконично анализируются основные формы и направления международного культурного обмена и на фоне этого анализа выявляются основные черты данного вопроса.



**Ключевые слова:** культура, международные отношения, культурный обмен, культурные связи, международное культурное сотрудничество.



**Summary**

Cultural exchange plays an important role in the system of international relations.

The article succinctly analyzes the main forms and directions of international cultural exchangeand on the background of this analysis identifies the main features of these question.



**Key words**:culture, international relations, cultural exchange and cultural communications, international cultural cooperation.